Azərbaycan.- 2021.- 3 aprel. S. 4.

Sumqayıt Kimya Sənaye Parkının rezidenti şüşə vərəqələrin ixracına başlayıb

Sumqayıt Kimya Sənaye Parkının (SKSP) rezidenti "Azerfloat" QSC ilk dəfə olaraq Türkiyə, Rusiya və Ukraynaya ümumi həcmi 90 min kvadratmetr olan ağ şəffaf şüşə vərəqələr ixrac edib.

SKSP-dan AZƏRTAC-a bildirilib ki, ümumi investisiya dəyəri 100 milyon avro olan "Azerfloat" QSC-nin vərəqə şüşə istehsalı zavodu müxtəlif çeşiddə, yüksəkkeyfiyyətli rəngli və şəffaf şüşə vərəqələri istehsal edir.